AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASI

*Əlyazması hüququnda*

**BALAYEV SÜLEYMAN RAFAİL OĞLU**

# AZƏRBAYCANIN MAŞINQAYIRMA MÜƏSSİSƏLƏRİNDƏ LİZİNQ MEXANİZMİNİN FORMALAŞMASI YOLLARI

İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

Bakı – 2014

Dissertasiya işi Azərbaycan Dövlət Neft Akademiyasının “Maşınqayırma sənayesinin iqtisadiyyatı və menecment” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Atakişiyev Müşviq Cəmil oğlu**

**Rəsmi opponentlər:** i.e.d., professor
**İsgəndərov Ramiz Kamal oğlu**
i.e.n., dosent
**Böyükkişi Nəriman Bəhram oğlu**

**Aparıcı təşkilat:** İqtisadi İnkişaf Nazirliyi,
İqtisadi İslahatlar Elmi–Tədqiqat İnstitutu

Müdafiə « 04 » dekabr 2014-ci il saat $11^{00}$ –da Azərbaycan Dövlət Neft Akademiyasında fəaliyyət göstərən D.02.141 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Dissertasiya ilə Azərbaycan Dövlət Neft Akademiyasının kitabxanasında tanış olmaq olar.

Ünvan: AZ 1010. Bakı şəh. Azadlıq prospekti. 20

Avtoreferat « » 2014-cü il tarixdə göndərilmişdir.

Dissertasiya Şurasının
Elmi katibi, t.e.d., professor Ə.M.Əliyev

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Ölkənin iqtisadi inkişafının yüksək templəri istehsalın texniki cəhətdən yenidən silahlanması, əsas istehsal fondlarının yeniləşdirilməsi və müvafiq olaraq iri həcmli investisiyaların cəlb edilməsi olmadan mümkün deyil. Effektivli və artıq təcrübədə sınanmış investisiya mexanizmlərindən biri lizinqdir. Xarici ölkələrdə lizinqin uğurlu olması və inkişafı, Azərbaycanda isə bu investisiya fəaliyyətinin zəif olması onun inkişafını ləngidən amillərin hələ də mövcud olmasından xəbər verir.

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf konsepsiyasına uyğun olaraq maşınqayırma sahəsinə ölkə iqtisadiyyatında vacib yer ayrılır. Maşınqayırma sahəsinin vəziyyəti Azərbaycanın sosial-iqtisadi inkişafına, milli iqtisadiyyatın digər sahələrinin texniki səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Azərbaycanda lizinqə dair qanunvericilik sahəsi milli bazarda lizinq biznesinin əmələ gəlməsindən bir qədər sonra formalaşmağa başlamışdır və həmişə özünün mürəkkəbliyi və lizinq problemlərinin tam əhatə edilməməsi ilə fərqlənirdi.

Dünya iqtisadiyyatının qloballaşması şəraitində yalnız milli maşınqayırma müəssisələrinin investisiya aktivliyi onların rəqabət qabiliyyətliliyini yüksəldə bilər. Maşınqayırma sahəsinin istehsal aparatının təzələnməsi üçün lizinqin müxtəlif formalarının istifadəsi ölkə iqtisadiyyatının inkişafında prioritet istiqamətdir. Bizim tədqiqatımız bu məsələnin həllinə yönəlmişdir və həmin işin mövzusunun aktuallığını və ona olan tələbatı müəyyənləşdirir.

**Mövzunun elmi işlənməsinin səviyyəsi.** Maşınqayırma müəssisələrinin əsas istehsal fondlarının təkrar istehsalı hər zaman keçmiş sovet respublikalarında iqtisadiyyat elminin nəzərinin mərkəzində olmuşdur. Bununla əlaqədar dissertasiya üzərində işləyərkən iddiaçı əsas fondların təkrar istehsalının (bərpasının) nəzəri aspektlərini ətraflı əks etdirən MDB ölkələrinin alimlərinin elmi əsərlərindən geniş istifadə etmişdir. Bu sırada L.İ. Abalkinin, D.A. Baranovun, V. N. Borisovun, M.A. Vilenskinin, A.Q. Qranberqin, Y.M. İvanovun, V.P. Kalininin, Y.L. Kontorun, A.F. Kovalyovun, S.M. Kuzmenkonun, V.İ. Kuşlinin, Y.İ. Lyubimtsevin, A.A. Malıqinin, P.M, Pavlovun, M.İ, Rimerin, V.Q. Zaxarovun, A.L. Qaponenkonun, Y,B. Kvaşanın, D.M. Palteroviçin, R.M. Petuxovun və s. işlərini

göstərmək olar. A.K. Ələsgərovun, T.N. Əliyevin, M.M. Allarverdiyevin, M.A. Axundovun, M.C. Atakişiyevin, R.T. Həsənovun, T.A. Hüseynovun, R.M. Cəbiyevin, A.A. Nadirovun, A.H. Nuriyevin, A.Q. Nağıyevin, Z.A. Səmədzadənin, Ş.A. Səmədzadənin, R.P. Sultanovanın, R.İ. İsgəndərovun, Q.Ə. Səfərovun, N.B. Böyükkişinin, E.M. Hacızadənin, Ş.M. Muradovun, Q.S. Suleymanovun, F.A. Fərəcovun, Q.Z. Yüzbaşiyevanın və s. kimi milli iqtisadçıların elmi əsərlərində həmçinin müəssisələrin özlərinin vəsaitlərinin məhdudluğu, onların investisiya cəlbediciliyinin aşağı səviyyədə olması və dövlət tərəfindən köməyin kifayət qədər olmaması şəraitində sənaye müəssisələrin əsas istehsal fondlarının təkrar istehsalı probleminin yüksək əhəmiyyəti vurğulanır. Lizinqin təşkilati və iqtisadi əsasları aşağıda göstərilmiş xarici alimlərin əsərlərində tədqiq edilmişdir: İ.A.Bayev, M.İ. Buxalkov, P.L. Vilenski, V.D. Qazman, V.İ. Qoloşapov, V.A. Qoremıkin, V.M. Cux, R. Kantino, V.V. Komarov, İ.M. Korşunov, N.R. Kravçuk, E.A. Krasyeva, M.İ. Leşenko, M. Miller, F. Modilyani, P. Nevitt, M. Harvi, M. Hoyer, X.İ. Şpittler və s.

Lizinq uzunmüddətli aktivlərin maliyyələşdirilməsinin alternativ forması kimi axırıncı onilliklərdə elmi–iqtisadi ədəbiyyatlarda geniş tədqiq olunur. Ancaq onun əsasında həyata keçirilən real investisiyaların həcmi çox məhduddur. Bunun səbəblərindən biri də bu maliyyə mexanizminin incəliklərinin kifayət qədər tədqiq olunmamasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya tədqiqatının məqsədi maşınqayırma müəssisələrinin əsas istehsal fondlarının müasirləşdirilməsi və yeniləşdirilməsinə yönəlmiş investisiya mənbələrini aktivləşdirmək imkanını verən lizinq mexanizminin təşkilati-iqtisadi təkmilləşdirilməsi və lizinq maliyyələşdirilməsinin səmərəliliyinin artırılması üzrə tövsiyələrin işlənməsidir.

Qoyulmuş məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələrin həll edilməsi zəruridir:

- investisiyalaşdırmanın lizinq formasının müsbət və mənfi cəhətlərini aşkar etmək, onun investisiyalaşdırmanın kredit forması və icarə ilə müqayisəli təhlilini aparmaq;
- sənaye biznesində lizinqin xarici təcrübəsini və tendensiyaları ümumiləşdirmək;

- ölkənin maşınqayırma müəssisələrinin əsas istehsal fondlarının müasir vəziyyətini və onların təkrar istehsalı prosesində mövcud dinamikanı təhlil etmək;

- ölkənin maşınqayırma müəssisələrində investisiya proseslərinin mövcud olan vəziyyətini tədqiq etmək;

- Azərbaycanda lizinq bazarının inkişafının təhlilini aparmaq və sonradan maşınqayırma müəssisələrinin əsas istehsal fondlarının təkrar istehsalı prosesində lizinqin istifadəsinə yönəlmiş investisiya tədbirlərinin aktivləşdirilməsi üzrə təklifləri işləyib hazırlamaq;

- Azərbaycanda lizinqin tənzimlənməsinin iqtisadi-hüquqi məsələlərini tədqiq etmək;

- milli maşınqayırma biznesində investisiyalaşdırmanın lizinq formasının inkişafının qabağını alan amilləri müəyyən etmək;

- lizinqverən, avadanlığı göndərən, maliyyə institutu (bank), lizinqalan (maşınqayırma müəssisələri) arasında yaranan və göstərilən münasibətləri tənzimləyən lizinq mexanizminin təkmilləşdirilməsinin təşkilati-iqtisadi yolları müəyyən etmək;

- ölkədə bazar iqtisadiyyatının inkişaf xüsusiyyətlərinin nəzərə alınması ilə lizinq subyektlərinin hüquqi münasibətlərini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi üzrə tövsiyələri işləmək.

**Tədqiqat obyekti** ölkənin innovasiya inkişafının ayrılmaz hissəsi olan maşınqayırma müəssisələrinin əsas istehsal fondlarıdır.

**Tədqiqat predmeti** maşınqayırma müəssisələrinin əsas istehsal fondlarının təkrar istehsalı sistemində lizinq investisiyalaşdırılmasının təşkilati-iqtisadi mexanizmidir.

**Tədqiqatın nəzəri və metodoloji bazası** kimi maşınqayırma müəssisələrinin əsas istehsal fondlarının təkrar istehsalı və lizinq münasibətləri sahəsində milli və xarici alimlərin elmi əsərlərində əks etdirilmiş konsepsiyalar, lizinq əməliyyatlarını tənzimləyən beynəlxalq standartlar, ölkədə lizinq münasibətlərini reqlamentləşdirən qanunvericilik və normativ sənədlər, dövrü nəşrlərdə çap olunmuş məqalələr və İnternet şəbəkəsinin materialları, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin, İqtisadi İnkişaf, Maliyyə və digər Nazirliklərin rəsmi materialları istifadə olunmuşdur.

Tədqiqat prosesində və dissertasiyanın müddəalarının işlənməsi zamanı ümumelmi metod və üsullar, dialektik, statistik, sistem təhlillər, sintez, həmçinin məlumatların emalının qrafik metodları istifadə edilmişdir.

**Tədqiqatın nəticələrinin elmi yeniliyi** bazar iqtisadiyyatı şəraitində maşınqayırma müəssisələrinin əsas istehsal fondlarının təkrar istehsalının maliyyə metodu olan investisiya fəaliyyətinin lizinq mexanizminin təkmilləşdirilməsi üzrə tövsiyələrin işlənməsindən ibarətdir.

Müəllifin əldə etdiyi elmi yeniliyi təşkil edən nəticələr aşağıdakılardır:

- əsas kapitalın elementləri kimi çıxış edən həmçinin onların mülkiyyətə alınması və sonradan müvəqqəti istifadəyə verilməsi üzrə hərəkətlərin məqsədli istiqamətləndirilməsini müəyyənləşdirən lizinq münasibətləri anlayışları müəllif tərəfindən dəqiqləşdirilmişdir;
- investisiyalaşdırmanın lizinq formasının müsbət və mənfi cəhətləri müəyyən edilmişdir və onun kredit forması və icarə ilə müqayisəli təhlili aparılmışdır;
- lizinq münasibətlərinin anlayışları sistemləşdirilmişdir, lizinqin təsnifatlandırma əlamətləri təklif edilmişdir ki, onların quruluş ardıcıllığı lizinqin fəaliyyətinin məntiqi ilə müəyyən edilir, əlamətlər özləri isə lizinqin məzmunun, növlərini və milli lizinq fəaliyyətinin inkişaf istiqamətini təşkil edən sistemdir;
- lizinq fəaliyyətinin yalnız lizinq şirkətlərinə mənfəət gətirən investisiyalaşdırma aləti kimi deyil, həm də maşınqayırma müəssisələrini bahalı əmək vasitələri, avadanlıq, müxtəlif texniki qurğular və nəqliyyat vasitələri ilə maddi-texniki təchizat sistemi kimi istifadəsi əsaslandırılmışdır;
- lizinq sahəsində milli qanunvericiliyin (Mülki, Vergi və Gömrük Məcəllələri) hərtərəfli təhlili aparılmışdır, ölkədə lizinqin aktiv inkişafını çətinləşdirən əsas maneələr müəyyən edilmişdir və bu sahədə dünya təcrübəsinin nəzərə alınması ilə onların aradan qaldırılması üzrə tövsiyələr formalaşdırılmışdır;
- lizinq fəaliyyətinin tənzimlənməsi sahəsində əlavə qanunvericilik aktlarının qəbul edilməsi zərurəti əsaslandırılmışdır;
- milli maşınqayırma müəssisələrinin əsas istehsal fondlarının müasir vəziyyətinin və onların təkrar istehsalında yaranmış dinamikanın kompleks təhlili verilmişdir;
- lizinq fəaliyyətinin yüksək dəqiqlik, etibarlılıq, məhsuldarlıq və qənaətliliyə malik olan lizinq əmlakının istifadəsi və daim renovasiyası hesabına elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə etməklə

iqtisadi artımın innovasiyalı istiqamətləndirilməsinə bilavasitə təsir göstərməsi sübut edilmişdir;

- ölkədə lizinq bazarının inkişaf istiqamətləri müəyyən edilmişdir və bu Azərbaycanın maşınqayırma müəssisələrində lizinqin istifadəsinə yönəldilmiş investisiya tədbirlərinin aktivləşdirilməsi üzrə konkret təkliflər işlənib hazırlanmışdır;

-lizinq ödənişlərinin hesablanması metodikası təkmilləşdirilmişdir ;

- lizinqin səmərəliliyinin qiymətləndirilməsi modeli verilmişdir;

- maşınqayırma sahəsində lizinq fəaliyyətinin təkmilləşdirilməsinin əsas istiqamətləri elmi cəhətdən əsaslandırılmışdır;

- ölkə ərazisində fəaliyyət göstərən təsərrüfat subyektlərinin (potensial lizinqalanların) kəmiyyət tərkibindən və istehsal sahələrin maddi-texniki bazasının vəziyyətindən irəli gələrək lizinq fəaliyyətinin Azərbaycanın investisiya siyasətinin tərkib hissəsi kimi potensial imkanları müəyyən edilmişdir.

**Nəticələrin nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəzəri əhəmiyyəti Azərbaycan maşınqayırma müəssisələrinin əsas istehsal fondlarının təkrar istehsalı prosesinin mövcud lizinq mexanizminin təkmilləşdirilməsi yolu ilə sürətləndirilməsinə imkan yaradan təşkilati-iqtisadi müddəaların işlənməsindən ibarətdir. Dissertasiya işinin bu müddaəları ölkənin dövlət idarəetmə orqanları (İqtisadiyyat və sənaye Nazirliyi və s.) tərəfindən milli iqtisadiyyatın inkişaf strategiya və taktikasının formalaşdırılması zamanı istifadə oluna bilər.

Dissertasiyanın praktiki əhəmiyyəti onun konkret praktiki tövsiyələr səviyyəsinə gətirilmiş əsas müddəalarının həm sonrakı elmi-nəzəri tədqiqatlarda, həm də təsərrüfat subyektlərinin praktiki fəaliyyətində istifadə edilməsi imkanlarından ibarətdir. Ölkənin maşınqayırma müəssisələrində lizinq mexanizminin istifadəsi üzrə işdə təklif olunan tövsiyələrin tətbiqi investisiya resurslarının məhdudluğu şəraitində qısa və ortamüddətli dövrlərdə əsas istehsal fondlarının təkrar istehsalı prosesinin əsas məsələsini – fiziki və mənəvi aşınmasının aradan qaldırılmasının həll edilməsində köməklik göstərə bilər. İşlənmiş praktiki tövsiyələr universal xarakter daşıyır və sahə mənsubiyyətindən asılı olmayaraq istənilən müəssisədə istifadə oluna bilər.

Dissertasiya işinin bəzi müddəaları tələbələrin təhsilində də istifadə oluna bilər, o cümlədən «İstehsalın iqtisadiyyatı», «İstehsalın

təşkili və menecment», «İnvestisiya menecmenti», «Maşınqayırmanın iqtisadiyyatı», «Maliyyə menecmenti», «Müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin təhlili» fənnlərinin tədrisində.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işinin əsas müddəaları Azərbaycan Dövlət Neft Akademiyasının Doktorantların və gənc tədqiqatçıların Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş «Azərbaycan 2020: neft – qaz sənayesinin inkişaf perspektivləri» adlı elmi-praktiki konfransında (Bakı, 2013-cü il), Azərbaycan Respublikası Təhsil Nazirliyi Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransında (Bakı, 2013-cü il) və «Mirovıe tendenüii i perspektivı razvitiə finansovoy sistemı Ukrainı» (Kiyev, 2013-cü il) X Beynəlxalq elmi-praktiki konfransda məruzə və müzakirə edilmişdir.

Tədqiqatın nəzəri müddəaları və praktiki materialları Azərbaycan Dövlət Neft Akademiyasının «Maşınqayırmanın iqtisadiyyatı və menecment» kafedrasında «Maliyyə menecmenti», «Müəssisənin iqtisadiyyatı», «İstehsalın iqtisadiyyatı və menecment» fənnlərinin mühazirələrində və praktiki məşğələlərin aparılmasında istifadə olunur (tədris prosesinə tətbiq edilmə haqqında akt vardır).

Lizinq mexanizminin istifadəsi üzrə müəllifin tövsiyələri M.Əzizbəyov adına Təcrübə-Sınaq zavodunun maliyyə-təsərrüfat fəaliyyətinin idarə edilməsi məsələlərinin həllində tətbiq edilmişdir (№ 01/21, 21 aprel 2014).

**Tədqiqat nəticələrinin nəşr edilməsi.** Dissertasiya tədqiqatının əsas müddəaları ümumi həcmi 20,5 çap vərəqəsindən ibarət olan 8 çap işində əksini tapmışdır, o cümlədən 3 məqalə xaricdə çap olunmuşdur. Məqalələrin hamısı Azərbaycan Respublikasının Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda çap edilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiyanın fəsil və paraqrafları dissertasiyanın mövzusu üzrə aktual, az tədqiq edilmiş və yaxud ümumən həll edilməmiş problemləri daha yaxşı əks etdirən qaydada formalaşdırılmışdır. Dissertasiya işi giriş, üç fəsil, nəticə və biblioqrafik siyahıdan ibarətdir. İşdə 17 cədvəl, 1 diaqram və 4 şəkil vardır. Dissertasiyanın həcmi 150 səhifədən ibarətdir. Biblioqrafiya siyahısı özündə 141 adda nəşr cəmləşdirir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **girişində** mövzunun aktuallığı və öyrənilmə səviyyəsi əsaslandırılır, tədqiqatın məqsədi və vəzifələri şərh edilir, işin elmi yeniliyi və əməli əhəmiyyəti müəyyən edilir, tədqiqatın obyektinin və predmetinin seçilməsi əsaslandırılır.

Dissertasiya işinin birinci fəsli **«Lizinq təşkilati-iqtisadi münasibətlər sisteminin formalaşdırılmasının nəzəri metodoloji əsasları»** adlanır. Burada lizinqin mahiyyəti, əsas xüsusiyyətləri və üstünlükləri, əsas fondların təkrar istehsalının lizinq formalarının xarici təcrübəsi, Azərbaycanda lizinq fəaliyyətinin institusional əsasları, Azərbaycanın ÜTT-na daxil olması şəraitində ölkə maşınqayırmasının inkişaf perspektivləri tədqiq edilir.

Lizinqin kredit və icarədən fərqləri təhlil olunur. Müəssisənin əsas fondlarının yeniləşdirilməsi üçün lizinq mexanizminin istifadəsinin xarici təcrübəsi göstərilir. Lizinq və lizinq sövdələşmələri sahəsində Azərbaycanın qanunvericiliyi nəzərdən keçirilir.

Lizinqin istənilən tərifi məhduddur və bu kredit alətinin bütün formalarını əhatə edə bilmir. Bu işin çətin olmasını o fakt təsdiqləyir ki, UNIDROIT-ə (Xüsusi Hüquqların Unifikasiyasının Beynəlxalq İnstitutu) təqribən 15 il ərzində beynəlxalq lizinq üzrə vahid şəklə salınmış normalar işlənilirdi. Bir çox iqtisadçı bu günə qədər lizinqin daha dəqiq izahını vermək üzərində çalışır. Bəzi alimlər lizinqə iqtisadi kateqoriya kimi baxaraq fikiri əsasən mülkiyyət münasibətlərinə yönəldir, başqaları lizinqi sahibkarlığın xüsusi növü kimi xarakterizə edirlər, üçüncülər lizinqi maliyyələşdirmənin cəlbedici forması kimi təsvir edilməsi ilə məhdudlaşırlar, dördüncülər onu uzunmüddətli icarə ilə eyniləşdirirlər.

Lizinq məhsuldar qüvvələrin və istehsal münasibətlərinin elementlərinin müəyyən qarşılıqlı əlaqələrini ifadə etdiyinə görə o, maddi-əşya əsasa və sosial-iqtisadi formaya malikdir.

Lizinqin maddi-əşya tərəfi istehsalın təşkilati-hüquqi formaları, sahibkarlıq fəaliyyətinin əşya elementlərinin hamısının və hissəsinin kirayə edilməsi, əmlakın alqı-satqısı və kreditləşdirmənin şərtləri ilə xarakterizə olunur. Lizinq bank krediti və ya kommersiya icarəsi ilə müqayisədə sahibkarlıq fəaliyyətinin daha yüksək səviyyəsinə aiddir, çünki o, maliyyə biznesi, istehsalatda, daşınmaz əmlak və avadanlıq bazarlarında vəziyyət, həmçinin müştərilərin dəyişən tələbatları və

icarənin xüsusiyyətləri haqqında daha geniş diapazonda biliklərin olmasını tələb edir.

Demək olar ki, lizinq özündə təşkilati-iqtisadi münasibətlərin üç formasını cəmləşdirir: icarə, kredit və ticarət.

Lizinq mürəkkəb sosial-iqtisadi fəaliyyət olaraq istehsal fəaliyyətinin aktivləşdirilməsi üzrə çox vacib funksiyaları yerinə yetirir: maliyyə, istehsal, təchizat və vergi imtiyazlarının istifadə edilməsi.

2003-cü ilin 9 avqustuna qədər Azərbəycanda lizinqin mülki-hüquqi tənzimlənməsi 29 noyabr 1994-cü il tarixində qüvvəyə minmiş «Lizinq xidməti haqqında» qanunla və 1 sentyabr 2000-ci il tarixində qüvvəyə minmiş Mülki məcəllə ilə tənzimlənirdi. 2003-cü ilin avqust ayının 9-da «Azərbaycan Respublikasının Mülki məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi haqqında» Qanun qəbul edildikdən sonra «Lizinq xidməti haqqında» qanun qüvvədən düşmüş hesab edilmişdir. Mülki məcəlləyə isə on səkkiz yeni maddə əlavə edilmişdir.

Hal-hazırda Azərbaycanda lizinq əməliyyatlarının mülki-hüquqi tənzimlənməsi Mülki məcəllənin Lizinq bölməsi, həmçinin əmlak kirayəsi müqavilələrini tənzimləyən Mülki məcəllənin müddəaları və Vergi məcəllə ilə həyata keçirilir.

**«Lizinq Azərbaycanın maşınqayırma müəssisələrinin istehsal potensialının inkişaf forması kimi»** adlandırılan dissertasiya işinin ikinci fəslində Azərbaycan maşınqayırma sənayesinin inkişaf meylləri, lizinq ödənişlərinin hesablama metodikası, Azərbaycanda lizinq bazarının formalaşdırılması və inkişafı məsələlərinə baxılmışdır.

Azərbaycanın maşınqayırma sahəsinin inkişafının kompleks xarakteri verilir. Maşınqayırma müəssisələrini, həmçinin əsas fondların təkrar istehsalını və innovasiya proseslərini xarakterizə edən statistik göstəricilər əks olunur.

Ölkənin lizinq bazarının dəqiq xarakteristikası verilir: lizinq şirkətlərinin miqdarı, lizinq sövdələşmələrinin şərtləri, lizinq əməliyyatlarının həcmi. Maşınqayırma müəssisələrində lizinq mexanizminin inkişafının qabağını alan səbəblər təhlil olunur.

Azərbaycanın maşınqayırma sahəsinin inkişafının retrospektiv təhlili göstərir ki, keçən əsrin 90-cı illərində maşınqayırma məhsullarının istehsal həcmi əhəmiyyətli dərəcədə azalmışdır. Maşınqayırmada həmin dövrdə baş verən böhranın səbəbi ölkə iqtisadiyyatının digər sahələrindəki böhran səbəblərinə oxşardır. Birincisi, Sovet İttifaqının vahid iqtisadi məkanı dağılmışdır. İkincisi,

istehsal olunan məhsul ümumən rəqabətqabiliyyətli deyildi. Üçüncüsü, müəssisələr inkişaf üçün lazım olan investisiyalardan məhrum olmuşlar.

Azərbaycanın maşınqayırma sahəsi hal-hazırda 57 müəssisə ilə təmsil olunmuşdur ki, onların istehsal həcmi 2012-ci ildə 151,5 mln. manat olmuşdur. Maşınqayırma məhsulunun doxsanıncı illərdə aşağı düşməsindən sonra son on illikdə bir qədər yüksəlməyə başlamışdır (cədvəl 1).

Cədvəl 1

Azərbaycanın maşınqayırma sahəsinin inkişaf göstəriciləri

| İllər / Göstəricilər | 1995 | 2000 | 2005 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|
| İstehsal həcmi (mln. manat) | 38,9 | 32,0 | 32,8 | 151,2 | 156,7 | 151,5 |
| Sahənin istehsal həcminin ümumi sənaye istehsalında xüsusi çəkisi (%) | 2,2 | 1,0 | 0,4 | 0,6 | 0,5 | 0,5 |
| İşçilərin sayı (min nəf.) | 33,6 | 11,6 | 7,3 | 4,8 | 4,2 | 4,5 |
| İşçilərin orta aylıq nominal əmək haqqı (manat) | 8,9 | 40,1 | 98,9 | 227,4 | 273,0 | 326,2 |
| Əsas sənaye-istehsal fondlarının mövcudluğu, ilin sonuna (mln. manat) | 171,3 | 183,0 | 210,1 | 262,5 | 396,0 | 365,8 |

Mənbə:Azərbaycan Dövlət Statistika Komitəsi.

İstehsal artımını şərtləndirən əsas amillər aşağıdakılar olmuşdur: idxalın əvəz edilməsi proseslərinin inkişafı, müəssisələrdə güclərin optimallaşdırılması üzrə işlərin aparılması, yeni texnikanın mənimsənilməsi, ayrı-ayrı maşınqayırma məhsullar növlərinin ixrac həcmlərinin artması. Bununla belə, sahədə işləyənlərin sayı 2010-cu ilə nisbətən azalır və 2012-ci ildə 4,5 min nəfər olmuşdur.

Fəaliyyət miqyasına görə müəssisələr kiçik, orta və böyük müəssisələrə ayrılırlar. Milli maşınqayırma sənayesi əsasən orta və böyük müəssisələrlə təmsil edilmişdir, onların sayı 31-dir, kiçik müəssisələrin sayi 26-dır.

Maşınqayırma müəssisələrinin 80,3%-i dövlət, 19,7%-i isə qeyri-dövlət mülkiyyətindədir.

Ölkənin sənaye istehsalının strukturunda maşınqayırmanın xüsusi çəkisi 0,5% təşkil edir və bu iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə olan 35-50%-dən əhəmiyyətli dərəcədə azdır.

«Azərbaycan 2020: gələcəyə baxış» inkişaf Konsepsiyasına uyğun olaraq maşınqayırma sənayesinə ölkə iqtisadiyyatında vacib yer ayrılır. Ölkənin maşınqayırma sahəsinin vəziyyəti Azərbaycanın sosial-iqtisadi inkişaf səviyyəsinə, milli iqtisadiyyatın digər sahələrinin texniki silahlanmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Azərbaycanın yüksək texnoloji sənayeyə malik olan və dünya bazarlarında rəqabətqabiliyyətli olan məhsul istehsal edən dövlətlər sırasında yer tutmağa qadir olması və yaxud dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatının xammal əlavəsinə çevrilməsi maşınqayırmanın inkişafından daha çox asılıdır.

Elmi-texniki tərəqqinin templərinin sürətlənməsi şəraitində maşınqayırma sahəsinin əsas istehsal fondlarının aktiv hissəsi tez bir zamanda mənəvi köhnəlir. Azərbaycan maşınqayırma sahəsində əsas istehsal fondlarının fiziki və mənəvi aşınması kritik səviyyəyə çatmışdır (35%-dən 50%-ə qədər) (cədvəl 2). Hər il 0,5-1,5% əsas fond istismardan çıxır. Yeniləşmə də çox aşağı səviyyədədir. Belə vəziyyət istifadə olunan dəzgah, maşın, mexanizmlər və s. parkının təzələnməsi üzrə tədbirlər kompleksinin həyata keçirilməsi zərurətini yaradır. Bununla bərabər vaxt amili xüsusi əhəmiyyət kəsb edir, xüsusilə də nəzərə alsaq ki, inkişaf etmiş ölkələr sənayelərini hər 7-10 ildən bir yenidən silahlandırırlar.

Cədvəl 2

Azərbaycan maşınqayırma sahəsinin əsas istehsal fondlarının vəziyyəti

| İllər / Göstəricilər | 2005 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|
| Əsas sənaye-istehsal fondlarının mövcudluğu, ilin sonuna (mln. manat) | 210,1 | 262,5 | 396,0 | 365,8 |
| Əsas sənaye-istehsal fondlarının yeniləşməsi (ümumi dəyərinə nisbətən faizlə) | 3,5 | 18,7 | 3,2 | 6,4 |
| Əsassənaye-istehsal fondlarının sıradan çıxması (ümumi dəyərinə nisbətən, faizlə) | 0,7 | 1,3 | 1,3 | 0,4 |
| Əsas sənaye-istehsal fondlarının aşınması (ümumi dəyərinə nisbətən, faizlə) | 61,3 | 41,0 | 35,4 | 51,1 |

Mənbə:Azərbaycan Dövlət Statistika Komitəsi

Maşınqayırmada əsas sənaye-istehsal fondların yeniləşdirilməsi üzrə yaranmış vəziyyəti investisiyaların çatışmamazlığı ilə izah etmək olar. Maşınqayırmada investisiya prosesi əsas fondların aşınmasının ödənilməsinin və geniş təkrar istehsalın ən vacib vasitələrindəndir. Lakin qeyd etmək lazımdır ki, 2012-ci ildə maşınqayırmaya investisiyalar yönəldilməmişdir.

Maşınqayırma müəssisələrinin birinci növbəli məsələsi investisiyaların tətbiqi vasitəsilə əsas fondların yeniləşdirilməsi və müasirləşdirilməsidir. Hal-hazırda elmtutumlu məhsulun istehsalı ən yeni texnologiyaların tətbiqi olmadan mümkün deyil. Lakin ölkənin çox az müəssisəsi innovasiyalı texnoloji avadanlığı şəxsi vəsaiti hesabına almaq iqtidarındadır və buna görə də əlavə uzunmüddətli maliyyələşdirmə mənbələrinə ehtiyacları vardır.

Azərbaycanda lizinq sektorunun inkişaf prosesini əyani qiymətləndirmək üçün bir neçə məlumat göstərmək kifayətdir. Məsələn, əgər 2003-cü ildə lizinq portfelinin həcmi cəmi 2,3 mln. dollar təşkil edirdisə, 2012-ci ilin göstəricilərinə əsasən ölkədə lizinq portfelinin həcmi 254,0 mln. dollara bərabər olmuşdur (diaqram 1).




Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

Diaqram 1. Azərbaycanda lizinq bazarının dinamikası (mln. dol.)

Lizinq investisiyalaşdırmasının həcmi, lizinq şirkətlərinin əməliyyatlarının sayı həm ümumən iqtisadiyyatın, həm də onun maliyyə sisteminin inkişafının indikatorudur.

Azərbaycanda bu gün lizinq yaxşı perspektivlərə malik olan, sürətlə inkişaf edən biznesdir. Son bir neçə il ərzində o inkişaf prosesində törəyərək mükəmməl investisiyalaşdırma alətinə çevrilmişdir. Bu gün ölkənin 30-a qədər şirkəti lizinqdə ixtisaslaşır və ya məhsullarını lizinqə verir.

Bununla belə, Azərbaycanda lizinqin inkişafı hələ inkişaf etmiş ölkələrin səviyyəsinə çatmayıb. İnkişaf etmiş ölklərdə əsas fondlara investisiyaların yarısına qədəri lizinq mexanizmi vasitəsilə aparıldığı halda Azərbaycanda əsas fondların cəmi 1,3%-i lizinqə alınır, halbuki Türkiyədə bu göstərici 6%-ə, Rusiyada isə 2,5 %-ə bərabərdir.

Azərbaycanın lizinq bazarı üzrə aparılmış təhlil ölkənin lizinq şirkətləri tərəfindən təklif olunan orta şərtləri formalaşdırmaq imkanı verir:

Müddət: Bir qayda olaraq lizinq şirkətləri tərəfindən təyin edilən maksimal müddət 36 ay təşkil edir.

Məbləğ: Lizinq şirkətlərinin çoxunun daxili siyasəti lizinq sövdələşməsinin minimal məbləğini 10 ABŞ dolları həcmində müəyyən edir. Lizinqin maksimal həcmi 1 mln. ABŞ dollarından artıq deyil.

Güzəştli dövr: Lizinqverənlər adətən altı aydan artıq olmayan müddətlik güzəştlər verirlər.

Ödənişlər: Lizinq ödənişlərinin qrafiki lizinq predmetinin faydalı istifadə müddətinə və məhsuldarlığına əsaslanır. Lizinq ödənişləri hər ay, hər kvartal və altı aydan bir həyata keçirilir. Şirkətlər lizinqin sonunda birdəfəlik böyük məbləğdə ödəniş nəzərdə tutan lizinq sifarişlərini qəbul etmirlər.

Avans ödənişi: Lizinqverənlər orta hesabla 20% həcmində avans ödəniş tələb edirlər. Hərçənd ki, bəzi sövdələşmələr üzrə avans ödəniş lizinq predmetinin dəyərinin 50%-ni təşkil edə bilər.

Faiz dərəcələri: Faiz dərəcələri illik 15%-dən 26%-ə qədər dəyişir və hər lizinq layihəsinin xüsusiyyətlərindən asılı olaraq müəyyən edilir.

Təşkilə görə komissiya: Bəzi lizinqverənlər təşkilati işlərə görə sövdələşməyə yönəltdikləri investisiyaların 1%-i həcmində komissiya tələb edirlər.

Sığorta: Lizinq obyektinin sığortalanması və istənilən əlavə sığorta məcburidir.

Lizinq xidmətləri sektorunun maliyyələşdirmə mənbələri: Bir qayda olaraq lizinq şirkətləri özlərinin əməliyyatlarını şəxsi resurslar və kommersiya banklarının kreditləri hesabına maliyyələşdirirlər.

Dissertasiya işinin üçüncü fəsli **«Azərbaycanın maşınqayırma sahəsində əsas fondların təkrar istehsalının lizinq formasının səmərəliliyinin artırılması»** adlanır. Bu fəsildə lizinq investisiya alətindən maşınqayırma müəssisələrinin inkişafında istifadə imkanları, maşınqayırma müəssisələrində lizinq əməliyyatlarının iqtisadi səmərəlilik mexanizminin formalaşması, lizinq fəaliyyətinin dövlət tənzimlənməsinin başlıca istiqamətləri əsas götürülmüşdür.

Lizinq sahəsində mövcud qanunvericiliyin təkmilləşdirilməsi üzrə tədbirlər təklif olunur, ölkədə lizinqin inkişafına dövlət dəstəyinə dair tövsiyələr verilir.

Lizinq səmərəliliyinin qiymətləndirilməsinə ehtiyac lizinq müqaviləsinin bütün tərəfləri üçün daha faydalı olan şərtlərin müəyyən edilməsi üçün lizinq ödənişlərinin aparılması zamanı yaranır. Effektivlilik göstəriciləri əsasında lizinq sxeminin qəbul edilməsi və lizinqalanla lizinqverən arasında lizinq müqaviləsinin bağlanması haqqında qərar qəbul edilir.

Lizinq müqaviləsinin layihələndirilməsinin müxtəlif mərhələlərində bütün lazım olan hesablamaları sürətlə aparmaq və ilkin şərtləri təhlil etmək lizinq səmərəliliyinin qiymətləndirilməsi modelindən istifadə ilə həll edilə bilər.

Lizinqin səmərəliliyinin qiymətləndirilməsi modeli (modelin struktur sxemi şəkil 1-də verilmişdir) aşağıdakı məsələləri həll etməlidir:

- lizinq layihəsinin həm lizinqverən, həm də lizinqalan üçün səmərəliliyinin qiymətləndirilməsi;
- lizinq ödənişinin ümumi məbləğinin və ayrı-ayrı hissələrinin hesablanmasının təmin edilməsi;
- lizinq ödənişinin həcminə asılı olmayan dəyişən parametrlərin, o cümlədən komission mükafatının dərəcəsinin, avansın həcminin, möhlətin müddətinin və s. təsirinin qiymətləndirilməsi;
- lizinq ləyihəsinin həm lizinqalan, həm də lizinqverən üçün gəlirliliyinə müxtəlif amillərin təsirinin qiymətləndirilməsi;

- layihənin optimal müqavilə şərtlərinin seçilməsinin həyata keçirilməsi.




Şəkil 1. Lizinqin səmərəliliyinin qiymətləndirilməsi modeli.

Qərar lizinqin həm lizinqverən, həm də lizinqalan üçün səmərəli olduğu variant üzrə qəbul edilir.

Lizinqalan üçün sxemin səmərəliliyinin təhlili iki mərhələdən ibarətdir:

- əmlakın kreditə götürülməsi və lizinqin müqayisəli səmərəliliyinin təhlili;
- lizinqə götürülmüş əmlakın istifadəsinin səmərəliliyinin təhlili.

Bu cür model lizinqalan və lizinqverən tərəfindən lizinq layihələrinin hazırlanması, danışıqların aparılması və müqavilənin rəsmiləşdirilməsinin sonuncu mərhələsində istifadə oluna bilər.

Azərbaycanda lizinqin müxtəlif sahələrin müəssisələri tərəfindən həyata keçirilən investisiya layihələrindən asılı olmasını nəzərə alaraq dövlət ilk növbədə köməyi iqtisadiyyatın prioritet sahələrinə göstərməlidir.

Lizinq əməliyyatlarının aparılması yolu ilə müəssisələrin investisiyalarına maliyyə resurslarının cəlb edilməsi üçün qanunvericilik və normativ bazanın yaradılmasından əlavə dövlət zəmanəti ilə əlverişli iqtisadi şərait yaradılmalıdır. Bu şərait vergi güzəştləri, lizinqə götürülmüş avadanlığın tezləşdirilmiş amortizasiyası metodunun istifadəsi, lizinq əməliyyatlarının gömrük və valyuta tənzimlənməsi ilə müəyyən edilir.

Azərbaycanda ixrac-idxal əməliyyatlarının vergi, mühasibat uçotu və hesabatın ümumi məsələlərini reqlamentləşdirən qanunvericilik və normativ sənədlərin əksəriyyəti lizinq sahəsinə dair spesifik deyil və lizinq şirkətlərinin fəaliyyət xüsusiyyətini nəzərə almır.

Vergi güzəştləri xarici ölkələrdə lizinqin sürətlə inkişaf etməsinə kömək etmiş əsas maliyyə metodudur. Həm də nə qədər çox güzəşt verilirsə lizinq o qədər sürətlə inkişaf edir.

Ölkədə lizinq sövdələşmələrinin səmərəli keçirilməsi üçün müəssisələrin investisiya fəaliyyətində lizinqin inkişafı üzrə əlverişli vergi siyasəti hələ formalaşmayıb, həmçinin milli müəssisələrin investisiya fəaliyyətində lizinqin istifadə edilməsi təcrübəsinin nisbətən kiçik olması ilə bağlıdır.

ƏDV-ən azad edilmiş texnoloji avadanlığın siyahısı kifayət qədər genişdir və buna görə də xaricdən gətirilmiş avadanlıqların əksəriyyəti səmərəli lizinq sövdələşmələrinin keçirilməsi üçün cəlbedicidir. Eyni zamanda lizinq şirkətləri tərəfindən alınan analoji milli avadanlıq üçün ƏDV-i üzrə heç bir güzəşt yoxdur və bu milli istehsalçılar üçün əlverişsiz iqtisadi şərait yaradır.

Lizinq əməliyyatlarının həcminin artırılması üzrə dövlət dəstəyinin maliyyə metodlarına təkcə ƏDV-nin tutulması üzrə güzəştlər sistemi deyil, həm də mənfəət vergisindən azad edilməsidir.

Lizinqin inkişafına dövlət köməyinin təkmilləşdirilməsi üçün vergi siyasəti dəyişdirilməlidir, vergi güzəştlərinin verilməsinə fərqli yanaşmalar edilməlidir. Bu zaman güzəştin son effektivliyinə səmtlənmə olmalıdır. Məsələn, avadanlığın lizinqə alınması üzrə lizinq əməliyyatlarının aparılması zamanı ƏDV-n ləğv edilməsi ilə bağlı olan vergi güzəştləri, fikrimizcə yalnız müəyyən müddətə verilə bilər (məsələn, üç ilə). Əgər müəssisə lizinqə götürülmüş avadanlığın səmərəli istifadəsini təmin etmirsə onda birincisi bu güzəşt onun üçün ləğv edilir, ikincisi isə ondan göstərilmiş güzəşt həcmində büdcəyə ödəniş tələb olunur.

Lizinq sövdələşməsinin iştirakçılarının məsuliyyət səviyyəsi lizinq haqqında müqavilənin şərtləri ilə müəyyən edilir.

İqtisadiyyatın prioritet sahələrinin, o cümlədən maşınqayırmanın inkişafı gömrük-tarif siyasəti ilə bilavasitə bağlıdır.

Hal-hazırda Azərbaycanda istehsal avadanlığının bəzi növləri, müxtəlif xammal və materiallar idxal olunarkən ƏDV və gömrük rüsumlarının ödənişindən azad edilmişlər və ya onlara dair daha aşağı tarif dərəcələri tətbiq edilir. Düşünürük ki, gömrük-tarif siyasəti lizinq üzrə alınan bahalı elmtutumlu istehsal avadanlığı üçün kiçik gömrük dərəcələrini nəzərdə tutmalıdır.

Aparılan hərtərəfli təhlil nəticəsində müəyyən edilmişdir ki, maşınqayırma müəssisələrində lizinq mexanizmini təkmilləşdirmək üçün aşağıdakı kompleks tədbirlər həyata keçirilməlidir:

- lizinq layihələrinin həyata keçirilməsi üçün dövlət zəmanətinin verilməsi, o cümlədən qeyri-rezident firmaların iştirakı ilə olanlara;
- avadanlığın amortizasiya müddətinin, amortizasiya ayırmalarının toplanması və alınan vəsaitlərin öz fəaliyyətlərinə yönəldilməsi hüquqlarının lizinq əməliyyatlarının iştirakçılarının özlərinə verilməsi;
- müddəti üç ildən az olmayan maliyyə lizinqi müqaviləsinin həyata keçirilməsindən alınan mənfəətdən verginin ödənilməsindən lizinqverənlərin azad edilməsi;
- bankların və digər kredit müəssisələrinin maliyyə lizinqi əməliyyatlarının həyata keçirilməsi (lizinq müqavilələrinin yerinə yetirilməsi) üçün üç ildən artıq müddətə verdikləri kreditlərdən aldıqları mənfəətdən verginin ödənilməsindən azad edilməsi;

- lizinq əməliyyatlarının iştirakçılarının əmlak və hüquqi maraqlarının müdafiəsinə yönəldilmiş normativ-hüquqi bazanın formalaşdırılması və təkmilləşdirilməsi üzrə tədbirlərin görülməsi;
- lizinq fəaliyyəti sahəsində məşğul olan personalın hazırlanması və təkmilləşdirilməsinə köməyin göstərilməsi.

Müəssisələrin əsas istehsal fondlarının yüksək aşınma səviyyəsi, elmi-texniki tərəqqi şəraitində onların sürətli mənəvi aşınması sənayenin prioritet sahələri üçün dövlət lizinq fondunun, yaxud lizinq sahəsində dövlət pay investisiya fondunun yaradılması zərurətini doğurur. Bu cür fondun analoqu ölkənin kənd təsərrüfatı sahəsində müvəffəqiyyətlə fəaliyyət göstərir. Fikrimizcə, ölkədə mövcud olan böyük maliyyə resursları (ARDNF və digər ehtiyatlar) lizinq sahəsində də istifadə oluna bilər.

Dissertasiya işinin sonunda tədqiqatın nəticələri ümumiləşdirilmiş**, nəticə və təkliflər** verilmişdir:

1. Lizinq münasibətləri anlayışları müəllif tərəfindən dəqiqləşdirilmişdir.
2. Milli maşınqayırma müəssisələrinin kompleks təhlili bu müəssisələrin nəinki əsas istehsal fondların bərpa edilməsi hətta istehsal prosesinin fasiləsizliyinin saxlanması üçün lazım olan xüsusi maliyyə resursları sahəsində ciddi çatışmamazlıq olduğunu göstərmişdir.
3. Maşınqayırma kompleksi müəssisələrində əsas istehsal fondların texniki-texnoloji köhnəlməsi (fiziki və mənəvi aşınması) istiqamətində sabit meyil müşahidə olunur və bunun əsas səbəbi təzələnmə əmsalının aşağı olmasıdır.
4. Ölkədə neft-mədən avadanlığının istehsalı sahəsində uzun illər ərzində toplanmış böyük təcrübə və mövcud olan elmi-texniki potensial milli neft maşınqayırmasının yeni texniki-texnoloji səviyyədə inkişaf etdirilməsi zərurətini şərtləndirir. Bu istiqamətin müasirləşdirilməsi üzrə dövlət proqramının qəbul edilməsi, yüksək keyfiyyətli neft-mədən avadanlığının istehsalının dövlət tərəfindən stimullaşdırılması milli neft maşınqayırmasının rəqabət qabiliyyətinin artırılmasına kömək göstərə bilərdi. Ölkədə istehsal oluna bilən neft-mədən avadanlığının xaricdən idxal edilməsi şəraitində bu kifayət qədər vacib amildir.
5. İnvestisiya resurslarının məhdud olduğu şəraitində ölkə maşınqayırma müəssisələri üçün qısa və ortamüddətli dövrlərdə lizinq əsas istehsal fondların bərpası prosesinin həlli üçün ən əlverişli

variantdır (onların fiziki və müəyyən qədər mənəvi aşınmasının aradan qaldırılması).

Lizinqin istifadəsi müəssisənin istehsal potensialının yenidən təchiz edilməsinə maliyyə resurslarının məqsədyönlü daxil olmasına zəmanət verən investisiya siyasətinin mexanizmini formalaşdırmaq imkanını verir və müəssisədən böyük həcmdə birdəfəlik xərclər tələb etmir.

6. Milli maşınqayırmanın investisiya cəlbediciliiliyinin aşağı olması maşınqayırma müəssisələrinin əsas istehsal fondlarının bərpa edilməsi prosesinin dövlət tənzimlənməsi tədbirləri kompleksinin və sahənin inkişaf etdirilməsi strategiyasının işlənməsi zərurətini yaratmışdır.

Əsas istehsal fondların bərpasının investisiyalaşdırılmasının ən səmərəli formasından biri lizinqdir. Lakin Azərbaycanda lizinq xidmətləri bazarı inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrindən geri qalır. Azərbaycanda avadanlığın investisiyalaşdırması həcmində lizinqin xüsusi çəkisi 1,4% təşkil edir, Rusiyada – 2,%%, ABŞ-da – 35%, B.Britaniyada – 30,0%. Milli lizinq bazarının genişlənməsi daha çox lizinq prosesinin həm dövlət tərəfindən, həm də lizinqlə bilavasitə məşğul olan strukturlar çərçivəsində idarə edilməsinin metod və formalarından asılıdır.

7. Azərbaycanda iqtisadi artım və istehsal məsələlərinin həlli lizinqin fəaliyyətinin müvəffəqiyyətindən xeyli asılıdır. Lizinq çevik mexanizm olaraq, investisiyaları cəlb etmək, milli maşınqayırma istehsalının artımına təsir etmək iqtidarındadır.

Lizinqin müvəffəqiyyətliliyi onun subyektlərinin lizinq münasibətlərinin iqtisadi təminatının səviyyəsindən, lizinq əlaqələrinin iştirakçılarına iqtisadi və hüquqi zəmanət verən etibarlı hüquqi təminatdan asılıdır.

Lizinq, kredit, girov, sığorta münasibətlərinə vahid və qarşılıqlı əlaqəli prosesin elementləri kimi baxılıb qiymətləndirilməsi lizinq əməliyyatının effektivliliyini daha da artırardı.

8. Son illərdə lizinq sektorunun genişlənməsinə mane olan problemlərin bir çoxunun həll edilməsinə baxmayaraq, onun inkişafını ləngidən bir sıra amil hələ də qalmaqdadır. Onların sırasında fəaliyyət göstərən lizinq şirkətlərinin kapitallaşmasının kifayət qədər olmamasını, həmçinin lizinq sövdələşmələri kimi digər uzunmüddətli layihələrin maliyyələşdirilməsinə kommersiya banklarının ehtiyatla yanaşmasını qeyd etmək olar. Daha bir problem ondan ibarətdir ki,

Azərbaycan qanunvericiliyinə əsasən lizinqverən lizinqalan tərəfindən qaytarılmış və ya onun müflisləşməsi nəticəsindən geri alınmış lizinq predmetini təkrarən lizinqə verə bilmir.

Deməli lizinqin milli normativ-hüquqi bazasını əlavə işləmək, ən effektiv kredit sistemini formalaşdırmaq, vergi qanunvericiliyini təkmilləşdirmək ehtiyacı vardır, çünki bunsuz Azərbaycanda lizinq sisteminin daha da inkişaf etməsi haqqında danışmaq olmaz. Bundan əlavə lizinq bazarının inkişafına onun dövlət tənzimlənməsi, lizinq şirkətlərinə səlahiyyətli nəzarət orqan tərəfindən köməyin göstərilməsi, lizinq üzrə idxal edilmiş avadanlıqlara tezləşdirilmiş amortizasiya normalarının tətbiqi, lizinq şirkətlərinə Mərkəzləşdirilmiş kredit reestrinə yolun açılması kömək göstərmiş olardı.

9. Ölkədə lizinqin aktiv inkişafını çətinləşdirən maneələr müəyyən edilmişdir və bu sahədə dünya təcrübəsinin nəzərə alınması ilə onların aradan qaldırılması üzrə tövsiyələr formalaşdırılmışdır.

10. Təhlil edilən dövr ərzində bizim proqnoz qiymətləndirilmələrimiz Azərbaycanda lizinq əməliyyatlarının inkişafı üçün böyük potesialın olduğunu göstərmişdir. Ən ehtiyatlı (pessimistik) proqnoz yaxın illərdə Azərbaycanın lizinq bazarının həcmini 700-900 mln. ABŞ dolları səviyyəsində müəyyən edir.

Dissertasiyanın əsas məzmunu nəşr edilmiş aşağıdakı materiallarda öz əksini tapmışdır:

1. Балаев С.Р. Развитие рынка лизинга в Азербайджане. Украинский журнал «Економіст», №10; Киев, Украина, 2012.

2.Balayev S.R. Lizinq maliyyələşdirmə formasının inkişafının institusional əsasları. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları; I cild: Bakı, 2013.

3. Balayev S.R. Azərbaycanın maşınqayırma sahəsinin istehsal potensialı. Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri: İqtisadiyyat seriyası, №1; Bakı, 2013.

4. Balayev S.R. Azərbaycanın maşınqayırma sahəsinin istehsal imkanları. Azərbaycan Dövlət Neft Akademiyası; Doktorantların və gənc tədqiqatçıların Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş «Azərbaycan 2020: neft – qaz sənayesinin inkişaf perspektivləri» adlı elmi-praktiki konfransının materialları; Bakı, 2013.

5. Балаев С.Р. Лизинг как эффективная форма инвестирования машиностроения Азербайджана. Журнал «Экономика. Финансы. Исследования», №3 (31); Институт экономических исследований МЭБП Республики Казахстан, Астана, 2013.

6. Балаев С.Р. Лизинг - действенный механизм обновления производ-ственного потенциала. Киевский Национальный Университет им. Т. Шевчен-ко; Материалы X Международной научно-практической конференции «Мировые тенденции и перспективы развития финансовой системы Украины» (24-25 октября 2013 года), Киев, 2013.

7. Atakişiyev M.C və Balayev S.R. Azərbaycanda lizinq bazarının formalaşdırılması və inkişafı meylləri. Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri: İqtisadiyyat seriyası, №1; Bakı, 2014.

8. Atakişiyev M.C və Balayev S.R. Qloballaşma şəraitində Azərbaycan maşınqayırmasının perspektivləri. Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri: İqtisadiyyat seriyası, №2; Bakı, 2014.

**Həmmüəlliflə birlikdə yazılmış işlərdə iddiaçının şəxsi xidməti**

(1-6)- tam müstəqil yerinə yetirilmişdir.

(7-8)- məsələnin qoyuluşu birlikdə aparılmış, statistik təhlil müəllif tərəfindən aparılmışdır.

Балаев Сулейман Рафаил оглы

# ПУТИ ФОРМИРОВАНИЯ ЛИЗИНГОВОГО МЕХАНИЗМА НА МАШИНОСТРОИТЕЛЬНЫХ ПРЕДПРИЯТИЯХ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

Целью диссертационного исследования является разработка рекомендаций по совершенствованию организационно-экономического механизма лизинга, позволяющего активизировать источники инвестирования, направленные на модернизацию и обновление основных производственных фондов машиностроительных предприятий.

Диссертационная работа состоит из введения, 3 глав, заключения и списка использованной литературы.

В первой главе работы исследуется сущность, основные черты и преимущества лизинга. Приводится зарубежный опыт использования лизингового механизма для обновления основных фондов предприятий. Рассматривается законодательство Азербайджана в части лизинга и лизинговых сделок.

Во второй главе диссертации дается комплексный характер развития отрасли машиностроения в Азербайджане. Приводятся статистические показатели, характеризующие предприятия машиностроения, а также процессы воспроизводства основных фондов и инновационные процессы.

В третьей главе работы обосновывается применение лизингового механизма, как важнейшего источника инвестирования воспроизводства основных фондов на машиностроительных предприятиях Азербайджана. Предлагаются меры по совершенствованию действующего законодательства в части лизинга.

В части заключения диссертации приводятся результаты исследования и список использованной литературы.

Основные положения диссертации докладывались и обсуждались на ряде международных и республиканских конференций. По теме диссертации имеется 8 публикаций в изданиях

рекомендованных ВАК Азербайджана, в том числе 3 публикации вышли за рубежом.

Balayev Suleyman Rafail

# THE METHODS OF FORMING LEASING MECHANISMS IN MECHANICAL ENGINEERING ENTERPRISES OF AZERBAIJAN

## SUMMARY

The aim of this research is to develop recommendations to improve the organizational and economic mechanism of leasing, allowing sources to intensify investment to modernize and update the basic production assets of engineering enterprises.

Dissertational work consists of the introduction, three heads, conclusions and offers, the list of the used literature.

The first chapter explores the essence of the main features and benefits of leasing. Analyzes the differences of the loan and rent from leasing. It also provides international experience of using the leasing mechanism to update the fixed assets of enterprises.

The second chapter of the thesis provides comprehensive development of machinery industry in Azerbaijan. It presents statistical indicators characterizing engineering enterprises, as well as the processes of reproduction of fixed assets and innovative processes. It has detailed description of the leasing market in the country.

In the third chapter justified using of the leasing mechanism, as an important source of reproduction of fixed assets investment in mechanical engineering enterprises of Azerbaijan.Proposes measures to improve the existing legislation with regard to leasing provides recommendations for state support for the development of leasing in our country.

In a final part of work conclusions and the recommendations received as a result of resulted research are given.

The main provisions of the thesis presented and discussed at a number of international and national conferences.

On the dissertation topic have 8 publications in recommended journals, including 3 publications which published in abroad.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ НЕФТЯНАЯ АКАДЕМИЯ

*На правах рукописи*

**Балаев Сулейман Рафаил оглы**

# ПУТИ ФОРМИРОВАНИЯ ЛИЗИНГОВОГО МЕХАНИЗМА НА МАШИНОСТРОИТЕЛЬНЫХ ПРЕДПРИЯТИЯХ АЗЕРБАЙДЖАНА

**Специальность**: 5312.01 – Отраслевая Экономика

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по экономическим наукам**

БАКУ – 2014